<u>Qeyri-rəsmi tərcümə</u>

**Nyu Meksika Ştatı**

**Nümayəndələr Palatası**

**2013-cü il, birinci sessiya, 51-ci çağırış**

Təqdim edilmişdir: Debbie A. Rodella

**Xatirə bəyanatı**

**Altı yüzdən çox əhalinin qətlə yetirildiyi Xocalı faciəsinin iyirminci ildönümünün qeyd edilməsi ilə bağlı**

1988-ci ildən 1994-cü ilə kimi davam edən Dağlıq Qarabağ müharibəsi Ermənistan və Azərbaycan arasında aparılmışdır;

1992-ci il 25 və 26 fevral tarixlərində Ermənistanın silahlı qüvvələri Rusiyanın hərbi birləşmələrinin müşayiəti ilə Azərbaycanda Xocalı rayonunu işğal etmiş, çoxlu sayda uşaq, qadın və yaşlılar da daxil olmaqla, 600-dan çox dinc mülki şəxsi qətlə yetirmiş, 1000-dən çox insani şikəst etmiş və 1200-dən çox mülki şəxsi əsir götürmüşdür;

Hücumdan sonra Xocalıda tapılmış çoxsaylı mülki şəxslərin cəsədləri parçalanmış və zorakı dəyişikliyə məruz qalmış, bu da onu müharibənin ən qeyri-insani və barbar döyüşlərindən biri kimi qiymətləndirir;

"Human Rights Watch" kimi beynəlxalq təşkilatlar Xocalıdakı bu qətliamı sənədləşdirmiş, əsas ABŞ və beynəlxalq xəbər təşkilatları dəhşətə gələrək bu qırğın barədə məlumat vermiş və dünyada bir çox dövlətlər bu hücumu pisləmişdir;

Bu günə kimi Ermənistan və Azərbaycan arasındakı münaqişə davam edir, Ermənistan qüvvələri Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon da daxil olmaqla Azərbaycanın iyirmi faiz ərazilərini işğal altında saxlayır;

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və Baş Assambleyası tərəfindən Ermənistan qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğalını pisləyən qətnamələr qəbul olunmuşdur;

Bu hadisə müharibənin səbəb ola biləcəyi dəhşətli qətliamların və bütün dünyada millətlər arasında anlaşmaya, qarşılıqlı ünsiyyətə və tolerantlığa davamlı ehtiyacın xatirəsidir.

26 fevral 2012-ci il tarixində Xocalı faciəsinin iyirminci ildönümü tamam olur.

**Nyu Meksika Ştatının Nümayəndələr Palatası qərara alır ki,** 26 fevral 1992-ci il tarixində baş vermiş və 600-dan çox dinc sakinin zərurət olmadan qətlə yetirilməsi ilə nəticələnən Xocalı faciəsinin iyirminci ildönümü qeyd edilsin.

**Həmçinin qərara alınır ki,** bu bəyanatın surətləri Amerika Birləşmiş Ştatlarının Konqresinə, Dövlət Departamentinə və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirinə göndərilsin.